# FATEHLİK ŞƏRƏFİ

*(“Şərəfnamə”)*



■ Məmməd Qocayev

*Getdim bu dastanda qoyub qəlbimi*
*Gərək oxunmasın əyləncə kimi.*

Nizami yaradıcılığının zirvəsi və yekunu olan **“İsgəndərnamə”**də insan problemi məntiqi nəticəyə çatmaqla özünün tam həllini tapmış olur. İnsan şəxsiyyətinin çata biləcəyi kamillik zirvəsi məhz bu əsərdə öz bədii-fəlsəfi ifadəsini tapır. Burada insan ideal səviyyəsinə qaldırılır. Bir daha qeyd etmək lazımdır ki, Nizami özünün insan idealını Məhəmməd peyğəmbərin simasında görürdü. Ümumiyyətlə, insan üçün ən yüksək, ideal kamillik səviyyəsini şair peyğəmbərlikdə görürdü. Ona görə də o, öz sevimli qəhrəmanı İsgəndəri peyğəmbərlik səviyyəsinə qaldırır. Beləliklə də “İsgəndərnamə”də Nizaminin yaradıcılıq axtarışları başa çatır - şairin insan konsepsiyası özünün bədii ifadəsini tapmış olur. Deməli, insanın çata biləcəyi ən uca zirvə, ən yüksək kamillik dərəcəsi məhz peyğəmbərlikdir. İnsanın bir şəxsiyyət kimi kamilləşməsində peyğəmbərlikdən o yana yol yoxdur. Öz sonuncu əsərində şair bu böyük hikməti oxuculara çatdırmağı qarşısına məqsəd qoymuş və buna şərəflə nail olmuşdur.

Əsərin sonunda Nizami həm İsgəndərin, həm də Ərəstundan tutmuş Sokrata qədər bütün aqillərin ölümünü təsvir edir. Bu sadəcə olaraq insan həyatının sonunu təsvir etmək deyildir. Burada insan həyatının faniliyini və dünyanın vəfasızlığını göstərmək də əsas məqsəd deyildir. Əsərdəki bu ölüm silsiləsi insanın Allaha qovuşması və onun əbədiyyətə çatmasının təsviridir. İsgəndərin və yeddi filosofun ölümündən sonra Nizami özünün ölümünü təsvir edir və beləliklə də, mütəfəkkir şair o böyük müdriklər cərgəsində əbədiyyətə qovuşanlardan biri olur.

“Yeddi gözəl”də olduğu kimi, “İsgəndərnamə”də də qəhrəmanın təkamül yolunun üç əsas mərhələsi təsvir olunur. Əgər Bəhram cəngavərlik, şahlıq və zahidlik mərhələlərində təsvir olunurdusa, İsgəndər şahlıq, filosofluq və peyğəmbərlik səviyyələrində təsvir olunur. İsgəndər əvvəlcə taxt-tac sahibi olur, dünyanı fəth edib onu özünə tabe edir. Sonra İsgəndər dünya şahlığından filosofluq səviyyəsinə yüksəlir, dünya sirlərinə vaqif olur. Nəhayət, o, peyğəmbərlik məqamına çatır, ilahi dəyərlər və ilahi sirlərə yiyələnir.

Bu üç mərhələyə uyğun olaraq Nizami “İsgəndərnamə”ni əvvəlcə üç hissədən ibarət yazmaq fikrində olub. Onlardan ikisi - **“Şərəfnamə”** və **“İqbalnamə”** oxuculara tanışdır. Üçüncünün mövcudluğu nizamişünaslar arasında müəyyən mübahisələr doğursa da, hər halda, onu tədqiqatçılar tam inkar etmirlər. Məsələn, A.Makovelski belə hesab edir ki, Nizami “İsgəndərnamə”ni əvvəlcə üç hissədən ibarət yazmağı nəzərdə tutmuşdur. Şair öz qəhrəmanını “1) dahi şahzadə və ideal şah, 2) müdrik filosof və 3) bəşəriyyətə ali həqiqətləri deyən və əsl mənada xoşbəxt həyat yolunu göstərən bir peyğəmbər kimi göstərmək istəmişdir”. Daha sonra tədqiqatçı göstərir ki, yəqin, Nizami öz ilkin məqsədindən imtina etmiş və ikinci hissəylə üçüncünü birləşdirmişdir. A.Makolevski onu da qeyd edir ki, əsərin birinci hissəsi “Şərəfnamə”, ikinci hissəsi isə iki cür - “İqbalnamə” və “Xiradnamə” adlandırılmışdır. Birinci hissədə “ideal şah”, ikinci hissədə isə “ideal cəmiyyət” axtarışları əsas yer tutur. Əsərdə “qəhrəmanın əvvəlcə şöhrət zirvəsinə yüksəlməsi”, sonra “müdriklik və nəhayət, möminlik zirvəsinə çatması” təsvir olunur.

Qəzənfər Əliyev qeyd edir ki, “bəzi ədəbi mənbələrdə əsərin ikinci hissəsinə “Xiradnamə” (əql, hikmət kitabı) adı da verildiyinə təsadüf edirik (Məsələn, 1852-ci ildə “Biblioteka İndika” silsiləsində çap olunan ikinci hissə məhz belə adlandırılmışdır)”.

Bu xüsusda Y.Bertels yazır: “Nizami üç hissədən danışır, yalnız göründüyü kimi, iki hissə mövcuddur. Bu ona görədir ki, ikinci və üçüncü hissələr faktiki olaraq birləşdirilmişdir, çünki Nizami müdrik və peyğəmbər arasında fərq görmür, bəlkə də bəzi səbəblərə görə... görmək istəmirdi”.

Bütün deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, “İsgəndərnamə” üç hissədən ibarət olub və hər hissədə qəhrəmanın xarakterinin təkamülünün bir mərhələsi əsas təhkiyə obyekti kimi götürülmüşdür: “Şərəfnamə”də cahangirlik, yəni İsgəndərin dünya fatehi kimi şərəf zirvəsinə yüksəlməsi, “Xiradnamə”də filosofluq, yəni qəhrəmanın dünya biliklərinə yiyələnməsi və hikmət zirvəsinə çatması, nəhayət, “İqbalnamə”də peyğəmbərlik, yəni İsgəndərin ruhi kamilliyə yetişməsi və ilahi sirlərə sahib olması. Çox güman ki, əsər məhz bu şəkildə düşünülmüş, lakin sonralar sonuncu iki hissə birləşdirilərək “İqbalnamə” adı altında verilmişdir. Yəqin ki, bunu onunla izah etmək olar ki, axırıncı iki hissədə birincidən fərqli olaraq əsas təsvir obyekti qəhrəmanın daxili aləmidir, onun fikir və hisslər dünyasıdır. Əgər “Şərəfnamə”də qəhrəmanlıq dastanlarına xas olan epik təhkiyə üslubu əsas yer tutursa, “İqbalnamə”də lirik, daha doğrusu, lirik-epik təsvir üslubu üstünlük təşkil edir. Birinci halda qəhrəmanın dünyəvi fəaliyyətindən söhbət gedir. Birinci halda hadisə yeri dünyadırsa, ikinci halda hadisə yeri qəhrəmanın daxili aləmidir. Bu baxımdan əsərin sonuncu iki hissəsinin bir başlıq altında birləşdirilməsi də məntiqi cəhətdən əsaslı hesab edilməlidir. Qəhrəmanın ruhi kamilləşmə yolu elmdən başlayıb dində sona yetir. Beləliklə də, müdrikliyə və soyuq biliyə dini hərarət və inam işığı əlavə olunur.

Nizamişünaslıqda V.Baxerdən başlayaraq belə bir fikir də özünə möhkəm yer eləmişdir ki, “İsgəndərnamə”də əsas mövzu ədalətli şah axtarışıdır. Bu fikri Y.Bertels və ondan sonra gələn Azərbaycan tədqiqatçıları da müdafiə edirlər. Məsələn, Y.Bertels yazırdı ki, “Nizaminin bütün yaradıcılığının ana xəttini” ideal şah surəti yaratmaq cəhdi təşkil edir. Bu haqda M.Cəfərin fikri daha doğru hesab edilməlidir. “Nizami heç yerdə... ideal şah yaratmaq fikrində olduğunu deməmişdir”. Lakin görkəmli alim sosiologizm prinsipindən yaxa qurtara bilməmişdir. Bunu onun aşağıdakı sözləri təsdiq edir: “Nizaminin axtardığı ideal şah yox, ideal cəmiyyət, ideal dövlət quruluşu, “əllə birlikdə” idarə olunan bir üsuli-idarə, “Kavə bayrağına” hörmət edən bir quruluş olmuşdur”. Əslində isə nə ideal şah, nə də ideal cəmiyyət məsələsi Nizami yaradıcılığının ana xəttini təşkil etmir. Nizami yaradıcılığında göstərilən hər iki problem, yəni həm ədalətli şah, həm də ədalətli cəmiyyət problemi mövcuddur. Lakin onların heç biri aparıcı mövzu deyildir. Məsələn, “Leyli və Məcnun” poemasında nə ədalətli şahdan, nə də ədalətli quruluşdan söhbət gedir. Ona görə də bu məsələləri ön plana çəkən tədqiqatçılar “Leyli və Məcnun”a çatanda bir çaşqınlıq qarşısında qalırlar. Məsələnin bu şəkildə qoyuluşu Nizami yaradıcılığının və xüsusən də, onun fəlsəfi epopeyasının mövzusunu həddən artıq bəsitləşdirir, mütəfəkkir şairi ədalətli quruluş uğrunda çarpışan bir inqilabçı kimi təqdim etmək məramı asanlaşır.

“İsgəndərnamə”nin əsas mövzusu heç də ədalətli şah və ya ədalətli cəmiyyət axtarışı deyil, ondan daha dərin, daha humanist bir mövzu olan ideal insan axtarışıdır. Məhz bu əsərdə Nizami özünün insan idealını bədii obraz şəklində təsvir etmişdir. “İsgəndərnamə”də Nizami insanı əvvəlki poemalara nisbətən daha yüksək bir kamillik mərtəbəsinə qaldırır. O, öz qəhrəmanını dünyəvi dəyərlərdən ayıraraq onu ilahi dəyərlər zirvəsinə yüksəldir, ideal insan səviyyəsinə çatdırır.

Ədalətli şah, ümumiyyətlə, şah məsələsi insan probleminin tərkib hissələrindən biridir. Şahlıq insanlığın təzahürlərindən biridir. “Xəmsə”də şair bu əzəli problemin müxtəlif cəhətlərini, yəni insanın müxtəlif vəziyyətlərdə və müxtəlif sifətlərdə mahiyyətini açmaq məqsədini güdmüşdür. Mahiyyət birdir - insanlıq mahiyyəti, sifətlər isə müxtəlifdir - aşiqlik, şahlıq, filosofluq, peyğəmbərlik. Bu dörd mövqedən şair insanı təhlil etmiş və onun dəruni mahiyyətinə varmışdır. Sadalanan sifətlərdə (obrazlarda) Nizami qəhrəmanlarının tədricən mürəkkəbləşən və dərinləşən xarakterləri yaradılmışdır. “Xəmsə”də insan aşiqlikdən peyğəmbərliyə qədər bir dərinləşmə, mürəkkəbləşmə və kamilləşmə yolu keçmişdir. Aşiqlik - insanın insana, şahlıq - insanın xalqa, filosofluq - insanın dünya hikmətlərinə, peyğəmbərlik isə - insanın Allaha məhəbbətidir.




İnsan öz səadətini eşqdə, yəni özü kimi bir insana xidmətdə görürsə buna aşiqlik səadəti demək olar.

Əgər insan özünü xalqa və məmləkətə xidmətə həsr edirsə, bu şahlıq səadətidir.

Özünü dünya sirlərinin açılmasına həsr edən insan həkimlik, filosofluq səadətinə çatmış olur.

Yalnız özünü Allaha və ilahi sirlərin dərk edilməsinə həsr etdikdə insan ən yüksək kamillik dərəcəsinə və mənəvi saflıq səviyyəsinə çatır ki, buna da peyğəmbərlik səadəti demək olar.

Beləliklə, ədalətli şah məsələsi Nizami yaradıcılığında və o cümlədən, “İsgəndərnamə”də əsas məsələlərdən biridir. Lakin ədalətli şah axtarışı Nizaminin ideal insan axtarışında son mərhələ deyil, olsa-olsa aralıq bir mərhələdir. Əgər “İsgəndərnamə”nin əsas qayəsi ədalətli şah axtarışları olsaydı, onda heç “İqbalnamə”ni yazmağa ehtiyac qalmazdı. Burada bir məqama da fikir vermək lazımdır. İsgəndərin ölümündən sonra onun oğlu şahlıqdan imtina edir və zahidlik yolunu tutur: atasının keşməkeşlər və çətin axtarışlardan sonra tapdığı haqq yolunu o, birbaşa davam etdirir.

*Məlikzadənin şahlığa meyli yox idi,*
*Onun Allahdan başqa pənahı yox idi (607).*
*Nəhayət, bir dağ məbədində oturdu,*
*Dünyanın işindən birdəfəlik əl üzdü.*
*Ürəyini dünya işindən (əl çəkib) ibadətə tapşırdı.*
*Buna daha yaşamaq demək olmaz, (deməli) o öldü (608).*

Beləliklə Nizaminin axtardığı və tapdığı ədalətli şah deyil, kamil insandır ki, onu da şair peyğəmbərlikdə görür. Peyğəmbərlik insanın çata biləcəyi ən yüksək kamillik zirvəsidir. Ondan o yana ilahi dərgah başlanır. İnsan heç vaxt öz sağlığında ilahi dərgaha çata bilmir və buna ehtiyac da yoxdur. Yalnız ruhi kamillik insanı Allaha yaxınlaşdırır. Peyğəmbərlik ruhi kamilliyin zirvəsi, insanın Allaha yaxınlığı və onunla ünsiyyət səlahiyyətidir. Peyğəmbər insan olaraq yeri göylə birləşdirir, bəşəriyyətə Allahı tanıtdırır, insanlarla onların rəbbi arasında vasitəçi olur.

Nizaminin Makedoniyalı İsgəndərin obrazına müraciət etməsinə gəlincə, bu məsələni Q.Əliyev bu şəxsiyyətin tarixdə və ədəbiyyatda məşhur olması ilə izah edir. Birinci fəsildə qeyd etmişdik ki, Nizami qəhrəmanlarının hamısı islamaqədərki dövrə aiddirlər. **Nizamiyə görə, həm mənəviyyat, həm şəxsiyyət baxımından Adəmdən başlanan bəşər tarixinin zirvəsi Məhəmməd peyğəmbərin və İslam dininin dünyaya gəlməsidir. “Şərəfnamə”dəki “Peyğəmbərin tərifi” fəslində şair Peyğəmbəri *“Adəmdən törəyənlərin ən dəyərlisi”* adlandırır. Nizami qəhrəmanlarından hər biri bu zirvəyə aparan yolun müəyyən mərhələsini təmsil edir. Bəşəriyyətin Məhəmməd peyğəmbər adlı ideala doğru yüksəlişini göstərmək məqsədilə şair öz qəhrəmanlarını islamaqədərki dövrdən götürmüşdür. Deməli, Nizaminin “Xəmsə”sini bütövlükdə bəşəriyyətin ideal insana doğru təkamülü yolunun bədii əksi kimi də başa düşmək olar.**

Nizami qəhrəmanlarından peyğəmbərlik zirvəsinə yüksəlmiş yeganə şəxsiyyət İsgəndərdir. İsgəndər haqqında **“Qurani-Kərim”**də də məlumat verilir. Ona görə də “Xəmsə”nin sonuncu poemasının qəhrəmanı kimi məhz İsgəndər şəxsiyyətinə müraciət olunmuşdur. Bu da Nizaminin ümumi bədii-fəlsəfi konsepsiyasından irəli gəlir. Məsələn, Əmir Xosrov Dəhləvinin “Xəmsə”sinin sonuncu əsəri Bəhram Gur haqqındakı poemadır. Q.Əliyev haqlı olaraq qeyd edir ki, “Xəmsə” yazan şairlər beşliyin sonuncu hissəsini öz ideya-bədii baxışlarının yekununa uyğun olaraq seçir və o, “Xəmsə” müəlliflərinin yaradıcılıq axtarışlarının məntiqi yekunu kimi qiymətləndirilməlidir.

İsgəndər əvvəlcə dünyanı fəth edir və haqq-ədaləti dünyada bərpa edir. Bu İsgəndərin ədalət yürüşüdür.

Sonra o, hikmətlər dünyasını fəth edir, dünya sirlərinə sahib olur. Bu qəhrəmanın həqiqət axtarışıdır.

Nəhayət, İsgəndər peyğəmbər kimi dünyanı səfərə çıxır və dini dünyaya yayır. Bu onun səadət səfəridir.

Ədalət, həqiqət və səadət. Birinci halda İsgəndərin silahı iti qılınc, ikinci halda iti zəka, üçüncü halda ilahi kəlamdır. İti qılınc haqqın yolunu azmış insanları ədalətə tabe olmağa məcbur edir. İti zəka insanı qəflət yuxusundan oyadır, onu həyatın və dünyanın sirlərini dərk etməyə qadir bir varlığa çevirir. Əyilməz başı kəsmək bir cür qələbədirsə, qəflətdə uyuyan başı oyatmaq başqa cür qələbədir. İsgəndərin Zəngibar bahadırı Kintalla vuruşması və onu öldürməsi gücün qələbəsidirsə, onun hindli filosofla mükaliməsi və onun suallarına cavab verməsi əqlin qələbəsidir. Müdriklik fatehlikdən üstündür. İlahi kəlam isə insanı elə bir mərtəbəyə çatdırır ki, burada nə qüvvə, nə də əql iş görə bilir. Peyğəmbərlik insanın ilahi sirlərə bələd olmaq iqtidarıdır. Fatehliyi və filosofluğu insan özü qazanır, peyğəmbərliyi isə ona Allah verir.

**(Ardı var)**